# *Hikmət HACIYEV:* "Nəticə o zaman olar ki, qarşı tərəf konstruktiv olsun, ancaq biz bunu görmürük"

Ermənistan bir tərəfdən münaqişənin sülh yolu ilə həllindən danışır, digər tərəfdən danışıqlara zərbə vuran təxribatlara əl atır.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 3-də keçirilən brifinqdə deyib.

Prezidentin köməkçisi bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın "müharibənin sülh yolu ilə həlli yoxdur" deməsi, son hərbçisinə qədər müharibəni davam etdirəcəyi və torpaqları Azərbaycana qaytarmayacağı ilə bağlı dedikləri danışıqlar prosesinə zərbədir.

Hikmət Hacıyev vurğulayıb ki, nəticə o zaman olar ki, qarşı tərəf konstruktiv olsun, ancaq biz bunu görmürük.

Prezidentin köməkçisi onu da qeyd edib ki, Ermənistan silahlı qüvvələri tərəfindən mülki insanlara qarşı hücumlar davam etməkdədir. Son vaxtlar Ermənistan silahlı qüvvələri fosfor tərkibli silahlardan da istifadə etməyə başlayıb.




❖ ❖ ❖

Hərbi əməliyyatların tərkib hissələrindən biri də informasiya müharibəsidir. Sentyabrın 29-dan indiyədək Azərbaycan Prezidenti İlham Əliyev dünyanın aparıcı media qurumlarına çoxsaylı müsahibələr verib.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 3-də keçirilən brifinqdə deyib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın siyasi-hərbi rəhbərliyi Prezident İlham Əliyevin bu fəaliyyətini imitasiya etmək istəyir, ancaq bu, əks təsir verir və onlar özlərinin işğalçılıq siyasətini ifşa edirlər.

Hikmət Hacıyev bildirib ki, Azərbaycan Prezidentinə bu müsahibələrdə təxribatçı sualların verildiyini də görürük, ancaq dövlət başçısı həmin suallara səbir və təmkinlə cavab verir.

Prezidentin köməkçisi deyib: "Təəssüf ki, beynəlxalq media qurumları ədalətli, obyektiv materiallar hazırlayanda erməni lobbisi tərəfindən təzyiq və təhdidlərlə üzləşirlər. Fransanın TF1 kanalı, ABŞ-ın "Nyu York Times" qəzeti də belə təzyiqlərə məruz qalır. Azərbaycan belə halları qəti şəkildə qınayır. Jurnalistlərin hədələnməsi qəbuledilməzdir və beynəlxalq ictimaiyyəti erməni lobbisinin bu hərəkətlərinin qarşısını almağa çağırırıq".

❖ ❖ ❖

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası istiqamətində əməliyyatları davam etdirir. Ermənistan silahlı qüvvələri bu gün də cəbhənin müxtəlif istiqamətlərində təxribata əl atıb. Azərbaycan Ordusu bu təxribat və hücumların qarşısını almaqdadır.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 3-də keçirilən brifinqdə bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanın haqq işi beynəlxalq səviyyədə dəstəklənir. Beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bu, Azərbaycan dövlətinin Prezidentimizin rəhbərliyi ilə apardığı uğurlu diplomatik fəaliyyətin nəticəsidir.

❖ ❖ ❖

Ermənistanın Azərbaycana qarşı informasiya müharibəsinə cavab olaraq Prezident İlham Əliyev nüfuzlu beynəlxalq media orqanlarına 24-dən çox müsahibə verib. Bəzi müsahibələr hətta bir və ya iki saat davam edib.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 3-də keçirilən brifinqdə deyib.

Prezidentin köməkçisi qeyd edib ki, dövlət başçısı bununla Azərbaycan həqiqətlərini dünyaya çatdırıb. Ermənistanın siyasi rəhbərliyi Azərbaycan Prezidentinin fəaliyyətini imitasiya etməyə çalışır. Ancaq bu, əks təsir verir və onlar özlərinin işğalçılıq siyasətini ifşa edirlər.

❖ ❖ ❖

Ermənistan həqiqətləri öz ictimaiyyətindən gizlədir.

AZƏRTAC xəbər verir ki, bunu noyabrın 3-də keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi Ermənistanın məğlubiyyətlərini, həqiqətləri gizlətməklə öz ictimaiyyətini aldatdığını bildirib.

❖ ❖ ❖

Ermənistanın hibrid müharibəyə keçməsi barədə məlumatlar daxil olur. Adətən ölkələr müharibəni uduzduqda asimmetrik və hibrid müharibədən istifadə edirlər.

AZƏRTAC xəbər verir ki, bu sözləri noyabrın 3-də keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Prezidentin köməkçisi bildirib ki, Ermənistan Azərbaycanın mülki əhalisinə atəş açmaqda davam edir, bunun üçün qadağan edilmiş ən güclü silahlardan istifadə edir. Ermənistan asimmetrik müharibə, yəni terror vasitəsilə müharibənin aparılması üsulunu seçib.

Hikmət Hacıyev Ermənistanın öz əməlləri ilə digər ölkələri də müharibəyə təhrik etməyə çalışdığını qeyd edib.

❖ ❖ ❖

Ermənistanın ağ fosfor tərkibli mərmilərdən istifadə etməsi onun qoşulduğu beynəlxalq konvensiyalara ziddir. Ermənistanın bu kimi silahlardan istifadə etməməsi ilə bağlı öhdəliyi var.

AZƏRTAC xəbər verir ki, bu sözləri noyabrın 3-də keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın bu silahlardan istifadə etməsində əsas məqsəd Azərbaycan Silahlı Qüvvələrinə və mülki insanlarına zərbə vurmaqdır. Ermənistan insanlar üçün ağır fəsadlar törədə bilən bu silahlardan istifadə edərək digər mülki obyektlərə də ziyan vura bilər. Ona görə də beynəlxalq ictimaiyyət bu məsələyə ciddi münasibət bildirməlidir.

❖ ❖ ❖

Azərbaycan Ordusu mülki insanları və obyektləri hədəfə almır, işğalçını sülhə məcburetmə əməliyyatı həyata keçirir.

AZƏRTAC xəbər verir ki, bunu noyabrın 3-də keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, Ermənistan Xankəndi və digər yaşayış məntəqələrində mülki obyektlərə zərbə endirilməsi barədə yalan məlumat yayır. "Biz mülki insanlarla müharibə aparmırıq, yalnız oradakı legitim hərbi hədəflərə zərbə endirilir. Azərbaycanda əsirlikdə olan erməni hərbçilər də hər hansı fiziki, psixoloji təzyiqlərdən kənardır. Biz bu sahədə üzərimizə düşən beynəlxalq öhdəliklərdən çıxış edirik. Azərbaycanla Ermənistan arasında olan əsas fərq də budur. Elə humanitar siyasətin nümunəsi olaraq bir müddət əvvəl Azərbaycanda olan 30 erməni hərbçisinin cəsədinin də Ermənistana verilməsi təmin olunub", - deyə Hikmət Hacıyev qeyd edib.

❖ ❖ ❖

Ermənistan öz cinayətlərini örtbasdır etmək üçün Azərbaycan Ordusunun tərkibində muzdluların, hansısa üçüncü ölkənin hərbçilərinin iştirak etməsi barədə yalanlar və fantaziyalar uydurur. Azərbaycanın muzdlulara ehtiyacı yoxdur. Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandanımızın tapşırığını layiqincə yerinə yetirir.

AZƏRTAC xəbər verir ki, bunu noyabrın 3-də keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, əksinə, muzdlular Ermənistan silahlı qüvvələrinin tərkibində xidmət göstərir. Onlar işğal edilmiş ərazilərimizdə yerləşdirilib və Azərbaycan Silahlı Qüvvələrinə qarşı istifadə olunur. Onların əksəriyyətini erməni əsilli insanlar təşkil etsə də, aralarında digər etnik mənsubiyyəti olan insanlar da var.

Prezidentin köməkçisi qeyd edib ki, erməni terrorçular açıq şəkildə internet vasitəsilə müxtəlif ölkələrdən olan muzdluları Ermənistana cəlb edir və bunun müqabilində onlara maddi mükafat vəd edir.

Azərbaycan.- 2020.-4 noyabr.- S.2.